

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 144 (23.306)

*3 avqust 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Oman Sultanlığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qasim Məhəmməd Salim Al Salhinin etimadnaməsini qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin yaxşı səviyyədə olduğunu, siyasi əlaqələrin məmnunluq doğurduğunu bildirərək təmasların daha da fəallaşdırılmasının və əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsinin vacibliyini qeyd edib. Prezident İlham Əliyev biznes dairələri arasında əlaqələrin qurulmasının önəmini vurğulayıb.

Səfir Qasim Məhəmməd Salim Al Salhi ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd edərək səfir kimi fəaliyyəti dövründə bu istiqamətdə səylərini əsirgəməyəcəyini bildirib.

Söhbət zamanı təhsil sahəsində əməkdaşlıq, o cümlədən universitetlərarası əlaqələr məsələlərinə də toxunulub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Laos Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sivienqxet Pxetvorasakın etimadnaməsini qəbul edib.



## Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Beş min illik tarixə malik qədim mədəniyyət mərkəzi Naxçıvanın milli-mədəni və tarixi irsinin daşıyıcısı olan Naxçıvan Dövlət Tarix Muzeyinin yaradılmasının 95 ili tamam olur.

1924-cü il oktyabrın 30-da Naxçıvan şəhərində qurulan ilk Tarix-Etnoqrafiya Muzeyinin maddi-mədəniyyət nümunələrinin qorunması və gələcək nəsillərə çatdırılmasında böyük əhəmiyyəti olmuşdur. Muzey fəaliyyətinin ilk illərində tarixi əhəmiyyətə malik eksponatların toplanması və mühafizəsi işini təşkil edərək muxtar respublikada muzeyşünaslığın əsasını qoymuşdur. Tarix-Etnoqrafiya Muzeyinin təşəkkülündə 1925-ci ildə Naxçıvanda yaradılan Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyətinin və ziyalıların xüsusi əməyi olmuşdur. Bu cəmiyyətin arxeoloqlarla birgə muxtar respublika ərazisində apardığı arxeoloji qazıntılar nəticəsində əldə etdiyi maddi-mədəniyyət nümunələri muzeyin ekspozisiyasını zənginləşdirmişdir. Bu mədəniyyət ocağı sonrakı illərdə Naxçıvan Tarix-Ölkəşünaslıq Muzeyinə çevrilmiş və muzeyə Azərbaycanın ilk realist rəssamı Bəhruz Kəngərlinin adı verilmişdir. Muzey 1968-ci ildən Dövlət Tarix Muzeyi kimi fəaliyyət göstərir.

Bu gün Naxçıvan Dövlət Tarix Muzeyində on şöbəni əhatə edən Naxçıvanın qədim və zəngin tarixi ilə bağlı 49 mindən çox eksponat qorunub saxlanılır.

Naxçıvan Dövlət Tarix Muzeyinin xalqımızın tarixi-mədəni irsinin toplanması, qorunması, tədqiqi və təbliğindəki əhəmiyyətini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyi geniş qeyd edilsin.
2. “Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı” təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 2 avqust 2019-cu il*

## Naxçıvan Beynəlxalq Hava Limanı üçün yeni uçuş-enmə zolağı tikilir





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən Naxçıvan Beynəlxalq Hava Limanı üçün yeni uçuş-enmə zolağının inşası artan yük və sərnişin tələbatının ödənilməsinə, eləcə də muxtar respublikada mülki aviasiya sahəsində işlərin uğurla həyata keçirilməsinə imkan verəcəkdir.



Avqustun 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağında görülən işlərlə maraqlanmışlar.

Məlumat verilmişdir ki, uçuş-enmə zolağının uzunluğu 3300, eni isə 60 metrdir. Ümumi sahəsi 250 kvadratmetr olan zolaqda əsas tikinti işləri başa çatdırılmış, uçuş və enmə zonasında manelər aradan qaldırılmışdır. Zolağın alt qatı mərhələli şəkildə bərkidilmiş, mühəndis-kommunikasiya xətləri, eləcə də yağış və qrunt sularının axıdılması üçün drenaj və kollektorlar çəkilmiş, asfalt örtük salınmışdır. Tikinti işləri iqlim şəraiti və beynəlxalq tələblər nəzərə alınmaqla aparılır, keyfiyyətli tikinti materiallarından istifadə olunur.

Uçuş-enmə zolağının naviqasiya və işıqlandırma sistemləri də tam müasir tələblər səviyyəsində olacaqdır. Gecə uçuşlarının həyata keçirilməsi üçün uçuş zolağı hər iki istiqamətdə işıq-siqnal avadanlıqları ilə təmin olunacaqdır. Tikinti işləri aparılarkən ərazidə peyk siqnallarını tənzimləyən yerüstü naviqasiya sistemləri, çətin hava şəraitində təyyarələrin təhlükəsiz qəbulu və uçuşu üçün avtomatlaşdırılmış meteoroloji radiolokator quraşdırılmış, radiorabitə vasitələri yenilənmişdir. Bu da yerli və beynəlxalq dəhlizlər üzrə hava şəraiti haqqında məlumatların operativ və dəqiq ötürülməsinə imkan verəcəkdir. Uçuş-enmə zolağında enişə yaxınlaşma sistemlərinin quraşdırılması hesabına dumanlı hava şəraitində qərarın qəbul edilməsi hündürlüyü 30 metrdən 400 metrədək olacaqdır. Yaradılan şərait hava limanının tam fasiləsiz fəaliyyət göstərməsinə, ən əsası isə geniş-tutumlu istənilən hava gəmilərinin qəbuluna imkan verəcəkdir.



Ali Məclisin Sədri uçuş-enmə zolağının inşasında əməyi olanlara təşəkkürünü bildirmiş, keyfiyyətin bundan sonra da diqqətdə saxlanılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan ərazisi müxtəlif filiz, qeyri-filiz və tikinti materialları ilə zəngindir

*Ümummilli lider Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamı ilə yaradılan AMEA Naxçıvan Bölməsində elmin müxtəlif sahələri üzrə hərtərəfli elmi-tədqiqat işlərinin aparılması alim və tədqiqatçılar qarşısında duran mühüm vəzifələrdən biridir. Naxçıvanın qədim tarixi, arxeologiyası, etnoqrafiyası, folkloru, ədəbi və mədəni mühiti, əlyazmaları, onomastikası, biomüxtəlifliyi, Günəş sistemi cisimləri və təbii ehtiyatlarının son illər sistemli şəkildə öyrənilməsi istiqamətində də bir çox işlər görülüb. Muxtar respublikada yaradılan normal mühit, Naxçıvanda elmə göstərilən diqqət və qayğı buna stimul verib. Bəs bölmənin 6 elmi-tədqiqat müəssisəsindən biri olan, muxtar respublikanın təbii ehtiyatlarını, onun yeraltı və yerüstü sahələrini elmi şəkildə öyrənmək məqsədilə yaradılan Təbii Ehtiyatlar İnstitutunda bu istiqamətdə hansı işlər görülür? İnstitutun elmi katibi, kimya üzrə fəlsəfə doktoru, dosent Əhməd Qarayevlə söhbətimiz də elə bu mövzu ilə bağlı oldu:*

*Müsahibimiz AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun elmi katibi, kimya üzrə fəlsəfə doktoru, dosent Əhməd Qarayevdir*



– Naxçıvan Muxtar Respublikasında elmin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, təbii ki, kollektivimizi daha yaxşı işləməyə, qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirməyə ruhlandırır. Qeyd edim ki, institutumuzda Mineral xammalın kimyası və texnologiyası, Sorbsiya prosesləri, Fiziki tədqiqatlar, Filiz və qeyri-filiz yataqları, Hidrogeologiya və mineral sular və Seysmologiya laboratoriyaları, Coğrafiya, İqtisadiyyat və Seysmoloji xidmət şöbələri fəaliyyət göstərir. Qarşımızda duran əsas vəzifə isə Naxçıvanın təbii sərvətlərinin geoloji, kimyəvi, fiziki tədqiqi, hidroloji və landşaft şəraitinin öyrənilməsi, mineral xammal istehsalının elmi əsaslarının işlənilib hazırlanması, sosial-iqtisadi infrastrukturların yerləşmə qanunauyğunluqlarının, regionun seysmik rejiminin, coğrafi şəraitinin və potensial enerji mənbələrinin öyrənilməsi istiqamətində elmi tədqiqatların aparılmasıdır ki, bunun üçün institutumuzda hərtərəfli şərait var. Şöbə və laboratoriyalarımız da müasir tələblərə cavab verən cihaz və avadanlıqlarla təmin edilib. Son illər elmi-tədqiqat işlərinin genişləndirilməsi nəticəsində Naxçıvanda mineral xammalın kompleks emalının elmi əsaslarla işlənilib hazırlanması, çoxkomponentli sistemlərdən qiymətli elementlərin sorbsiya metodu vasitəsilə ayrılmasının nəzəri və praktik əsaslarla öyrənilməsi üzərində iş aparılır. Həmçinin yerli materiallar əsasında günəş enerji çeviricilərində istifadə edilən birləşmələrin sintezi və onların paramentlərinin müəyyən edilməsi, regionda filiz və qeyri-filiz yataqlarının, hidroloji şəraitin öyrənilməsi, mineral suların



formalaşması qanunauyğunluqları və yeni hidrotermal mənbələrin axtarışı tədqiqatlara cəlb edilib.

***– Əhməd müəllim, muxtar respublikamızdakı hansı faydalı qazıntı yataqları tədqiqata cəlb edilib?***

– Məlumdur ki, Naxçıvan ərazisi müxtəlif filiz, qeyri-filiz və tikinti materialları ilə zəngindir. Burada molibden, mis, sürmə, polimetal filizləri, qeyri-filiz yataqlarından mərmər, gips, travertin, duz, və digər təbii sərvətlər, eyni zamanda çoxlu mineral bulaqlar var. Şərur, Şahbuz, Şahtaxtı, Gümüşlü, Ağdərə, Parağaçay, Duzdağ, Nehrəm, Təzəkənd, Qızılvəng, Darıdağ, Nəsirvaz, Gilançay və digər ərazilərdə yerləşən sənaye əhəmiyyətli müxtəlif faydalı qazıntı yataqları mövcuddur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində muxtar respublika ərazisində olan bir çox faydalı qazıntı yataqları tədqiqatlara cəlb edilib.

***– İnstitutun aparıcı laboratoriyalarından biri olan Mineral xammalın kimyası və texnologiyası laboratoriyasında hansı sahələrdə iş aparılır?***

– Bu laboratoriyada filiz və qeyri-filiz yataqlarından götürülən nümunələrin tərkibinin analizi aparılmaqla yanaşı, mövcud mineral xammallar əsasında bir çox birləşmələrin alınması həyata keçirilir və onların tətbiq sahələri müəyyənləşdirilir. Laboratoriyada iki istiqamətdə iş aparılır. Birinci iş Darıdağ arsen filizi əsasında arsenin bir sıra birləşmələrinin alınması və sürmə filizinin kompleks emalı, digəri isə ağır metalların sürmə, arsen, molibden, germanium və qalayla əmələ gətirdiyi ikili, üçlü halkogenidlərinin su və üzvi həlledicilər mühitində sintezi və xassələrinin araşdırılmasıdır.

***– Sorbsiya prosesləri laboratoriyasının fəaliyyətindən də danışmağınız maraqlı olardı. Yəqin ki, bu laboratoriyada da görülən işlər az deyil...***

– Həmin laboratoriyada da iki istiqamətdə iş aparılır. Birinci iş qiymətli elementlərin sorbsiya metodu ilə ayrılmasının nəzəri və praktik əsaslarının işlənib hazırlanmasıdır. Burada müxtəlif funksional qruplu ionitlərin quruluşlarının, iondəyişmə və turşu-əsas xassələrinin öyrənilməsi, ionitləri xarakterizə edən bir sıra vacib parametrlərin hesablanması nəzərdə tutulub. Eyni zamanda alınan nəticələrdən praktik olaraq qiymətli və əlvan metal ionlarının sorbsiya metodu ilə zənginləşdirilməsində tətbiq edilir. İkinci iş isə Naxçıvan Muxtar Respublikasında perspektivli yataqlar olan təbii seolitin fiziki-kimyəvi xassələrinin öyrənilməsi, onların tətbiq sahələrinin müəyyənləşdirilməsidir.



***– Təbii seolitlərin digər minerallardan fərqi nədir?***

– Qeyd edək ki, təbii seolitlərin tətbiqinin üstünlüyü onların geniş yayılmasında, ucuzluğunda, bir neçə dəfə istifadə olunmasının mümkünlüyündə və bəzi xüsusiyyətlərinə görə sintetik minerallardan fərqlənməsindədir. Seolitlər effektiv enerjini qoruyan proseslərin inkişafında, kənd təsərrüfatı sahəsində məhsuldarlığın artırılmasında, sənaye və urbanilaşmənin inkişafı nəticəsində yaranan ekoloji problemlərin həllində mühüm rol oynayır. Unikal tərkibinə görə təbii seolit heç bir əlavə və konservant olmadan uzun müddət saxlanılmasına baxmayaraq, özünün qiymətli xassələrini qoruyub saxlayır.

***– Muxtar respublikada təbii ehtiyatlar sahəsində aparılan tədqiqatlardan hansıları yekunlaşıb?***

– Qeyd edim ki, Parağaçay molibdenit və Gümüşlü qalenit filizləri işlənib. Parağaçay molibdenit filizinin tərkibinin öyrənilməsi, flotasiya metodu vasitəsilə onun faydalı komponentlərinin zənginləşdirilməsi, molibdenlə yanaşı, digər elementlərin – mis, sink və qurğuşunun ayrılıb fərdi şəkildə əldə edilməsi üzərində araşdırmalar aparılıb. Parağaçay molibdenit filizində molibdenin qatılığı 0,74-0,92 faiz, həddində dəyişir. Filizin flotasiya metodu ilə zənginləşdirilməsindən 25,4 faizli molibdenit konsentratı əldə edilib. Bu konsentratın emalı üçün ayrıca texnologiya işlənib və onun əsasında molibdenin bir sıra birləşmələri, ammonium molibdat, molibden (VI) oksid və onun nazik təbəqəsi, molibden (VI) sulfid və onun əsasında bir sıra tiomolibdatlar alınıb.

Gümüşlü qalenit filizindən isə qatılığı 21,2 faiz olan qurğuşun konsentratı və konsentratın emalından qurğuşunun birləşmələri və metal qurğuşun alınıb. Hazırda Darıdağ arsen və sürmə filizlərinin kompleks emalı əsasında tədqiqatlar aparılır.

***– Əhməd müəllim, institutda istehsalyönümlü tədqiqatlara da başlanılıb. Bu sahədə nə kimi işlər görülüb?***

– Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şorsu" müalicəvi palçığının hazırlanması ilə bağlı müvafiq tapşırığına əsasən ötən il Mineral xammalın kimyası və texnologiyası laboratoriyamızda palçığın tərkibinin kimyəvi analizi aparılıb, qatılaşdırılma, qurudulma metodikası, texniki şərtləri hazırlanıb, həm krem, həm də quru toz formasında qablaşdırılaraq satış üçün əczaxanalara göndərilib. Həmçinin Biləv kəndi ərazisində yerləşən "Zəylik dərəsi"ndən götürülmüş alüminium süxuru analiz olunub. Nümunənin analizindən sonra tərkibi müəyyən edilib və süxurun emalı üçün texnologiyası işlənilib. Görülən işlər nəticəsində Biləv alüminium süxurundan xalq arasında zəy adı ilə tanınan kalium-alüminium zəyi, alüminium-sulfat duzu və alüminium-hidroksid, ammonium-alüminium zəyi alınıb. Eyni zamanda Darıdağ termal suyunun quru qalığının alınması üçün şərait yaradılıb və məhsul istehsalına başlanılıb.

***– Təbii müalicəvi vasitə olan "Şorsu" palçığının istifadəsi ilə bağlı bir qədər geniş məlumat verməniz oxucularımız üçün də maraqlı olardı.***

– Qeyd edək ki, əvvəlki illərdə əhalimizin primitiv şəkildə istifadə etdiyi palçıq laboratoriyamızda müxtəlif əməliyyatlardan sonra gigiyenik qaydada qablaşdırılıb. Tərkibində maqnezium, natrium, kalsium, dəmir oksidi olan "Şorsu" müalicəvi palçığı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin məlumatına görə, 17 adda – revmatizm, revmatoid artrit, fəqərə osteoxondrozu, deformasiyaedici, miozit, bursit, insult qalığı, nevrit, nevralgiya, prostatit və digər xəstəliklərin müalicəsində istifadə edilə bilər. Müalicənin aplikasiya, tampon və ümumi palçıq vannası şəklində istifadəsi də mümkündür. Onu da qeyd edim ki, paketin və qutunun üzərində palçığın tərkibi, müalicəvi əhəmiyyəti və istifadə qaydası göstərilib.

***– Bildiyimiz kimi, Qabıllı gil yataqlarında da tədqiqatlar aparılıb…***

– Bəli, Kəngərli rayonu ərazisində yerləşən Qabıllı kəndinin özündə və ətraf ərazilərində müxtəlifrəngli çox böyük gil yataqları var. Biz orada da tədqiqatlar aparmışıq. Maraqlısı budur ki, gillər çox təmizdir, yəni tərkibində digər qarışıqlar yox dərəcəsindədir. Əvvəllər bu gillərdən müxtəlif məqsədlər üçün istifadə ediblər. Məsələn, təndirlərin hörülməsində, kərpic istehsalında, o cümlədən də yuyucu məhsul kimi istifadə edilib. Biz hesab edirik ki, bu gün sintetik yuyucu tozlardan fərqli olaraq həmin gillərdən yuyucu material kimi də istifadə edilə bilər. Həmçinin gildən üzün və saçların yuyulmasında istifadə də mümkündür ki, bu da sağlamlığımız baxımından daha faydalıdır.

***– Əhməd müəllim, qazanılan elmi uğurlar, həm də gələcək çoxşaxəli perspektiv fəaliyyətə zəmin yaradır...***

– Muxtar respublikanın təbii sərvətlərinin səmərəli istifadəsi istiqamətində institutumuzda aparılan tədqiqat işləri əməkdaşların kitab və monoqrafiyalarında, bir sıra xarici ölkələrin nüfuzlu nəşrlərində dərc olunan məqalələrində öz əksini tapıb. 2 qrant layihəsi qazanılıb, 20-yə yaxın patent alınıb. Əməkdaşlarımızın "Cəmiyyət və təbiətin qarşılıqlı əlaqəsində ekologiya və ətraf mühit" adlı kitabı Rusiyanın paytaxtı Moskva şəhərində 31-ci Beynəlxalq Kitab Sərgi Yarmarkasında elmin və təhsilin inkişafında əhəmiyyətinə görə Təşkilat Komitəsinin "Qızıl medal" mükafatına, "Təbii suların geokimyası və Naxçıvan Muxtar Respublikasında yayılma xüsusiyyətləri" kitabı isə 38-ci Beynəlxalq Paris Luvr kitab sərgisinin qızıl medalına və Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində keçirilən V Beynəlxalq Moskva Təhsil sərgisinin diplomuna layiq görülüb...

Gələcəkdə də muxtar respublikanın təbii ehtiyatlarından hərtərəfli istifadə etmək istiqamətində bizlər qarşısında qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün səy və bacarığımızı əsirgəməyəcəyik.

**Türkanə BƏYLƏRLİ**
***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsinin əməkdaşı***

## Sığorta xidmətlərində müştəri məmnuniyyətinə diqqət artırılır

Naxçıvan Muxtar Respublikasında icbari və könüllü sığorta növlərindən ibarət olmaqla vətəndaşlara 25-dən artıq sığorta xidməti təklif olunur. Şübhəsiz, regionun iqtisadi-mədəni potensialının yüksəlməsi, sığorta işinin təkmilləşdirilməsinə yönəlmiş dövlət qayğısının artması və aparılan sığorta maarifləndirməsi tədbirlərinin genişlənməsi ilə sığorta növlərinə olan maraqlar da artır. İndi Naxçıvanda daha çox sakin həyatını, daşınmaz əmlakını, avtomobilini, qiymətli ev əşyalarını, əkinlərini, mal-qarasını və yaxud kənd təsərrüfatı texnikasını vaxtında sığortalamaq üçün sığorta agentliyinə müraciət edir, müqavilələr bağlayır. Təcrübə göstərir ki, sığorta xidmətlərinin keyfiyyətinin yüksəlməsi vətəndaşların sığortaya olan inamının artması və onların müraciətlərinə vaxt itkisi olmadan baxılması bu sahədə inkişafa aparan əsas amillərdəndir.

Sığorta xidmətlərində müştəri məmnuniyyəti işin təşkilinin ilk mərhələsində başlayır. Belə ki, bir çoxları aparılan maarifləndirici və inzibati tədbirlərə baxmayaraq, hələ də sığortalı olmağın əhəmiyyətini tam şəkildə dərk etməyərək, onun üçün qiymətli olanları itirmək təhlükəsi ilə qarşı-qarşıya qalır. Ələlxüsus, söhbət üçüncü şəxslər qarşısındakı mülki məsuliyyətdən, məsələn, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasından gedirsə, insanlar gözlənilməz qəza halları zamanı onlar üçün ödənilməsi çox çətin olan maddi problemlərlə qarşılaşa bilərlər. Buna görə də sığortadan yayınan vətəndaşlara bunun əhəmiyyətinin aydın tərzdə izah olunması və nəticədə, müqavilə bağlanılması müştəri məmnuniyyətinin formalaşdıran ilk uğurlu addım hesab oluna bilər. Bir çox hallarda belə insanların baş vermiş gözlənilməz, qəfil hadisələrdən sonra məruz qaldığı maddi zərərə görə aldığı ödənişlər zamanı minnətdarlıq etmələri bu sahədəki maarifləndirmə işinin nə qədər əhəmiyyətli olduğunu göstərir.

Sığorta öz mahiyyət etibarilə burada iştirak edən tərəflərin bir-birinə qarşı yüksək dərəcədə etibar etməsi ilə formalaşan bir maliyyə bazarı növüdür. Bu mənada, sığorta fəaliyyətində göstərilən etibarlı xidmət bu sahədə şəffaflığın təmin olunması, sığorta haqlarının toplanılması, sığorta ödənişlərinin verilməsində elektron ödəniş üsullarından istifadənin tətbiqi ilə mümkündür. Muxtar respublikamızda bu sahədə tətbiq edilən mütərəqqi üsullar sığorta müqaviləsi bağlanılması zamanı müştərilərin vaxtına qənaət olunması və ödənilən sığorta haqlarının banklar vasitəsilə mərkəzləşdirilmiş hesablara köçürülməsini təmin edir. Beləliklə, vətəndaşlar sığorta müqavilələri bağladıqları zaman hər hansı subyektiv faktorla üzləşməyəcəklərinə əmin olur və əldə etdikləri sığorta məhsulunun hər hansı fərdi qaydada deyil, onların institusional zəmanət altında olduğuna inanırlar.

Sığorta fəaliyyəti zamanı vətəndaşlarla sığortaçı arasında bağlanılan müqavilələr, əslində, korporativ əməkdaşlığın bir nümunəsidir. Bu baxımdan insanların işgüzar fəallığının, onların mobilliyinin artdığı bir dövrdə sığorta xidmətlərinin onların evinə, yaxud iş yerinə qədər gəlib çatması, səyyar xidmətlərin göstərilməsi də müştəri məmnuniyyətinin artmasına öz müsbət təsirini göstərir. Bu mənada, istər fiziki, istərsə də hüquqi şəxs olsun, hər hansı insanın vaxtının qızıldan qiymətli olduğunu yaxşı bilən sığortaçı təklif etdiyi səyyar xidmətlərlə bu sahədəki çətinliklərin aradan qaldırılmasına nail ola bilir. Buna görə də cari ilin əvvəlindən başlayaraq Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi nəzdində təşkil olunmuş səyyar xidmət də qısa zaman içərisində sığorta müqaviləsi bağlamaq istəyən vətəndaşlar tərəfindən məmnuniyyətlə qarşılanmışdır. Bu il martın 7-də Dövlət Sığorta Agentliyinə 2 ədəd səyyar xidməti avtomobil təqdim edilməsi sığorta işinin təşkilinə dövlət qayğısının bariz ifadəsi olmaqla, bu prosesin daha mütəşəkkil şəkildə həyata keçirilməsinə şərait yaradır.

Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi əməkdaşlarının həftənin hər günü 24 saat müddətində telefon əlaqəsi vasitəsilə baş vermiş sığorta hadisələri barədə məlumat alaraq onlara baxış keçirməsi müştəri məmnuniyyətinin qazanılması baxımından müsbət hal kimi qeyd oluna bilər. Onu da qeyd edək ki, agentliyin yenilənmiş vebsaytına daxil olan istənilən vətəndaş onu maraqlandıran suallara buradan cavab tapmaqla sığorta ilə bağlı informasiya tələbatını da ödəyə bilər. Bütün bunlar isə sığortanın hər zaman qəfil hadisə ilə üzləşmiş insanların yanında olduğunu göstərməklə müştəri məmnuniyyətini formalaşdıran şərtlər kimi müasir sığortaçının da iş prinsipi olmalıdır.

**Şəfa ƏHMƏDLİ**
***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin əməkdaşı***



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı bütün sahələrdə innovasiyanı və dayanıqlı inkişafı əsas götürməsi kimi mühüm əhəmiyyətliliyi ilə seçilir və artıq öz bəhrələrini verməkdədir.*

*"Şərq qapısı" qəzetinin də muxtar respublikada investisiya mühitinin yaxşılaşdırılmasına, yaradıcı düşüncənin və ən yaxşı layihələrin üzə çıxarılmasına, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə xidmət edən "Startap Naxçıvan" hərəkatında fəal iştirak etməsi üçün "Mətbu startap layihələri" adlı yeni rubrika yaratdıq. Bu rubrikada startapla bağlı biliklərin, innovativ mühitin formalaşmasına və inkişafına xidmət edəcək modern təkliflər toplusundan ibarət məqalələr dərc olunacaq.*

*Mətbu startap layihələri*

## İxtisaslaşmış turizm sənayesi Naxçıvanın tanıdılmasında mühüm rol oynaya bilər

Zəngin tarixi və mədəni irsi, nadir təbiət və memarlıq abidələri, müasir infrastruktura malik yaşayış məntəqələri Naxçıvan Muxtar Respublikasında turizmin inkişafını şərtləndirən əsas amillərdir. Ötən dövrdə müxtəlif dövlət proqramlarının uğurlu icrası, o cümlədən həyata keçirilən mühüm infrastruktur tədbirləri muxtar respublikada bu sahənin inkişafına əlverişli şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə qəbul olunmuş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası isə muxtar respublikada turizm fəaliyyətinin güclənməsinə geniş imkanlar açıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Dünyanın bir çox ölkələrində turizmin inkişafına xüsusi diqqət və qayğı göstərilir. Azərbaycanda da turizmin inkişafı sahəsində tədbirlər görülür. Bu sahə ilə bağlı dövlət proqramı qəbul olunub və müvafiq qurum yaradılıb. Bu gün Azərbaycan dünyada həm də turizm ölkəsi kimi tanınır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası da turizm üçün çox əlverişlidir. Ona görə də muxtar respublikada mövcud imkanlardan səmərəli istifadə olunur, turizm bölgələri yaradılır və kəndlər abadlaşdırılır".***



Görülən işlərin nəticəsidir ki, rəsmi statistikaya görə ötən il muxtar respublikaya ölkəmizin digər bölgələrindən, həmçinin xarici ölkələrdən, ümumilikdə, 414 min 688 turist gəlib. Bu, müxtəlif turizm növlərinin inkişaf etdirildiyi muxtar respublika üçün ciddi rəqəmdir. Nəzərə alaq ki, 1 aprel 2019-cu il tarixə muxtar respublika əhalisinin sayı 456 min 700 nəfər təşkil edib. Yəni qədim diyarımıza səfər edən turistlərin sayı son illərdə artaraq muxtar respublika əhalisinin sayına yaxınlaşıb. Turizm səfərlərində artımın əhali artımına nisbətdə sürətli olduğunu nəzərə alsaq, yaxın zamanda bura gələn turistlərin sayının əhali sayını ötüb keçdiyinin şahidi olacağıq. Nəzərə alaq ki, inkişaf etmiş turizm ölkələrində bu say ayrılıqda həm ölkə, həm də regionlar (şəhər, rayon və sair) üzrə ölçülür. Buna görə də əhali sayından 4-5 dəfə, hətta daha çox turist qəbul edən şəhərlər bu gün dünyada turizm mərkəzləri kimi tanınır. Naxçıvanın isə bu sahədə perspektivləri daha çoxdur. Çünki Naxçıvan təkcə şəhər deyil, həm də muxtar respublikadır. Yəni turistlərin təkcə Naxçıvan şəhərini gəlib görməsi və geri qayıtması məntiqsizdir. Təbii olaraq bu qədim diyara yolu düşənlər muxtar respublikamızın bölgələrinə də baş çəkəcəklər. Demək istədiyimiz odur ki, muxtar respublikamızın turizm cəlbediciliyi təkcə Naxçıvan şəhəri ilə məhdudlaşmır. Çünki bölgələrdə də insanların marağını təmin edəcək obyektlər mövcuddur. Bu baxımdan yaxın gələcəkdə Naxçıvana turist axınının artmasına imkan verən bir çox səbəblər var. Ancaq bütün bunlarla yanaşı, dünya turizmində baş verən dəyişiklikləri də unutmamalıyıq. Bu dəyişikliklər içərisində ən çox diqqəti cəlb edən isə turizmdə ixtisaslaşmadır. Bu mövzuya istərdik ki, bir az ətraflı nəzər salaq.

Müasir dövrdə ixtisaslaşma istənilən sahənin marketinqində ön sırada dayanır. Ötən yazılarımızda da bu məsələyə toxunmuşduq ki, əvvəllər hər hansı bir məhsulu almaq istədikdə ərzaq və ya qeyri-ərzaq mağazalarına üz tuturduq. Məsələn, unlu şirniyyat məhsulları almaq üçün ərzaq mağazalarına və ya marketlərə müraciət edirdik. Ancaq indi bunun üçün yalnız şirniyyat satılan mağazalara gedirik. Bu seçimi indi ayrıca nəzərdə tutulmuş yuyucu mallar, xalçalar, musiqi alətləri, elektron əşyalar, dəftərxana ləvazimatları və digər profillər üzrə ixtisaslaşmış mağazalara da aid edə bilərik. Yəni ixtisaslaşma istehlakçılar üçün daha geniş seçim imkanları yaradır, eyni zamanda müvafiq məhsullar üçün daha məlumatlı obyektlə səni görüşdürür. Turizmdə də belədir. Bu gün hər birimiz düşünə bilərik ki, muxtar respublikamıza turist gəlsin, turistlərə ən yüksək səviyyədə xidmət göstərək. Ancaq məsələnin əsas tərəfi odur ki, muxtar respublikaya turist nəyə görə gəlməlidir? Məsələyə ötəri yanaşsaq, deyə bilərik ki, Naxçıvan mədəni ənənələrə, qədim tarixi abidələrə malik bir diyardır. Lakin əcnəbi turistlər üçün dünyanın onlarla ölkəsində qədim tarixə, maraqlı memarlıq abidələrinə malik bölgələr var. Bəzi hallarda məsafə baxımından həmin ölkələrə getmək Azərbaycanın bu qədim diyarına səfər etməkdən daha ucuz başa gəlir. Onda nəyə görə əcnəbi vətəndaşlar turizm bölgəsi kimi Naxçıvanı seçməlidirlər? Məhz ixtisaslaşma bu məqsədimizə çatmaq üçün bizə lazımdır.

Hamımıza məlumdur ki, Naxçıvan, həqiqətən də, qədim tarixə, zəngin mədəni dəyərlərə malik bir diyardır. Lakin tarixilik turizmdə yalnız müəyyən bir kütlənin maraqlarına cavab verir. Deməli, turizm marketinqinə görə burada fərqli obyektlərin və ya turizm növünün təbliğinə ehtiyac yaranır. Şükürlər olsun ki, Naxçıvanda belə imkanlar da mövcuddur. Məsələn, hər birimiz bilirik ki, muxtar respublikaya səfər edən ölkə vətəndaşları və yaxud əcnəbilər ən çox



Əshabi-Kəhf mağarasını və Duzdağ Fizioterapiya Mərkəzini ziyarət edirlər. Deməli, Əshabi-Kəhf ziyarətgahı dini turizmin təbliği üçün ideal məkandır. Adı "Qurani-Kərim"də çəkilən bu mağara təkcə müsəlman aləminin deyil, ümumilikdə, dünyada təkallahlığın rəmzi atributu kimi diqqətçəkicidir. Buna görədir ki, adıçəkilən obyekti qeyri-müsəlmanlar da maraqla ziyarət edirlər. Və yaxud götürək Duzdağ Fizioterapiya Mərkəzini. Son illərdə dünya turizmində ən çox diqqətçəkən və daha çox insanı özünə cəlb edən turizm sahələrindən biri sağlamlıq turizmidir. Sağlamlıq turizminin səviyyəsi ona görə ildənilə yüksəlir ki, müasir dünya inkişaf etdikcə bu və ya digər səbəblərdən insan sağlamlığı daha çox təsirə məruz qalır və insanlar öz sağlamlıqlarını bərpa etmək üçün hər il milyardlarla vəsait xərcləyirlər. Duzdağ isə Ulu Yaradanın bizə bir lütfüdür ki, bu qeyri-adi və dünyada analoqu olmayan obyekt Naxçıvanın payına düşüb. Buna görə də hər il bura dünyanın müxtəlif ölkələrindən pasiyentlər müraciət edirlər. Ancaq fikir versək, görərik ki, bura gələn turistlərin böyük əksəriyyəti Rusiya Federasiyası və MDB məkanından olanlardır. Bunun da səbəbi odur ki, 40 il bundan əvvəl yaradılmış Duzdağ Fizioterapiya Xəstəxanası sovetlər dövründən SSRİ məkanında tanınıb. Necə deyərlər, bu məkanın insanları Duzdağın müalicəvi əhəmiyyətini digər ölkələrdən daha çox bilirlər. Digər tərəfdən MDB məkanı bizim üçün böyük və potensial bir bazardır. Bu baxımdan düşünürük ki, müalicə mərkəzinin imkanları haqqında bu məkanda, eləcə də digər yaxın ölkələrdə təbliği üçün sistemli marketinq layihələrinə böyük ehtiyac var. Duzdağ, artıq bizim yerli sağlamlıq turizmində bir ixtisaslaşmadır. Bir məqamı da vurğulamaq lazımdır ki, sağlamlıq turizmi üçün ölkəyə üz tutan turistlər digər turistlərdən daha çox pul xərcləyirlər. Çünki burada sağlamlığın təmin olunması əsas rol oynadığından məcburi xərcləmələr qaçılmazdır.

Onu da qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Yol Xəritəsində ölkəmizdə sağlamlıq turizmi üçün dünyada analoqu olmayan iki mühüm obyekt – Naftalan nefti və Duzdağın təbii ehtiyatlarından istifadə mühüm prioritet kimi qarşıya qoyulub. Eyni zamanda bu iki potensial baza, həm də ölkəmizə uzaq məsafələrdən turist cəlb etmək üçün düşünülüb. Bu baxımdan Duzdağ Fizioterapiya Mərkəzinin Naxçıvan, ümumilikdə isə ölkəmiz üçün böyük əhəmiyyəti var. Bunu da qeyd etməkdə fayda var ki, Duzdağın təbliği muxtar respublika ərazisində mövcud olan müxtəliftərkibli və çoxsaylı mineral suların, şəfalı bitkilərin, müalicəvi tərkibli ekstarktların tanıdılması, satışı, hədiyyə olunması, ümumilikdə isə ixracı imkanlarını artırır.

*Bütün bu qeyd olunanları yekunlaşdıraraq deyə bilərik ki, Duzdağın dünya sağlamlıq turizmindəki rolu onun brendləşməsini labüd edir. Duzdağın bir dünya brendinə çevrilməsi üçün isə böyük potensialı var. Bizə bu potensialdan sistemli şəkildə istifadə etmək qalır.*

**Səbuhi HƏSƏNOV**

## Azərbaycan Kinosu Günü qeyd edilib



*Dünən Naxçıvan Dövlət Film Fondunda 2 avqust – Azərbaycan Kinosu Günü münasibətilə tədbir keçirilib. Əvvəlcə Azərbaycan bədii filmlərinin afişalarından ibarət sərgiyə baxış olub.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, ümummilli liderimiz Heydər Əliyev milli kinonun inkişafına, bu sahədə yüksək səviyyəli kadrların yetişməsinə və milli özünəməxsusluğu ilə seçilən koloritli, parlaq ekran əsərlərinin yaradılmasına qayğı ilə yanaşıb. Təsadüfi deyil ki, 1970-1980-ci illərin birinci yarısından etibarən Azərbaycan kinosunda intibah dövrü başlanıb. Kinematoqrafçıların yaratdıqları filmlər milli-mənəvi dəyərlərin təbliğində, milli şüurun formalaşmasında və gənc nəslin tərbiyəsində mühüm rol oynayıb. Bu illər ərzində kino salnaməmizin unudulmaz səhifələrini təşkil edən, aktual mövzulu və sənətkarlıq baxımından diqqətəlayiq, mədəniyyətimizin qızıl fonduna daxil olan filmlər yaradılıb, ümumilikdə, 110 bədii, 500 sənədli və elmi-kütləvi, eləcə də 44 cizgi filmi istehsal olunub. Məzmun və janr baxımından sənətə yenilik gətirən bu filmlər kinonu xalqa daha da yaxınlaşdırıb.

Nazir qeyd edib ki, 1998-ci il 19 avqust tarixdə "Kinematoqrafiya haqqında" Qanunun qəbul edilməsi və bununla da dövlət kinematoqrafiyasının hüquqi bazasının yaradılması Azərbaycanda kino sənətinin inkişafına əsaslı töhfə verib. 1996-cı ildə isə Azərbaycan Dövlət Film Fondu yaradılıb, kino tariximizi əks etdirən filmlərin qorunması təmin edilib.

Diqqətə çatdırılıb ki, bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən milli kino sənətinin inkişafı üçün mühüm işlər həyata keçirilir. "Azərbaycan kinosunun 2008-2018-ci illər üçün inkişafına dair Dövlət Proqramı"nın icrası nəticəsində kinofilmlərin istehsalının artırılması, eləcə də müasir kino avadanlıqları və texnikası ilə təchizat, xarici ölkələrlə birgə film istehsalının genişləndirilməsi, kinoteatrların yenidən qurulması təmin edilib. Ölkə Prezidentinin ötən il Azərbaycan kinosunun 120 illiyinin qeyd edilməsi ilə bağlı imzaladığı Sərəncam bu istiqamətdə aparılan işlərin məntiqi davamıdır.

Naxçıvan Dövlət Film Fondunun fəaliyyətindən də bəhs edən Natəvan Qədimova bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Yaradıcılıq ittifaqları və birliklərinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 20 may tarixli Sərəncamına əsasən film fonduna da 15 min manat məbləğində vəsaitin ayrılması muxtar respublikada bu sahənin daim diqqət mərkəzində saxlanıldığının bariz göstəricisidir. Bu gün Naxçıvan Dövlət Film Fondunda 5 minə yaxın film saxlanılır. Azərbaycan filmləri ilə yanaşı, burada müxtəlif ölkələrdə istehsal olunmuş bədii və sənədli filmlər, cizgi filmləri, qısametrajlı, elmi-kütləvi, Azərbaycan dilinə dublyaj edilmiş filmlər də mühafizə edilir.

Sonra 1923-cü ildə ekranlaşdırılmış tammetrajlı "Qız qalası əfsanəsi" səssiz bədii filmi nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə "Məktəbin idarə olunması" mövzusunda keçirilən 5 günlük təlim başa çatıb.*

## Təlim başa çatıb



Ümumtəhsil məktəbləri rəhbərlərinin peşəkarlıq səviyyəsinin artırılması, onların yeni bilik, bacarıq, səriştə və praktik biliklərə tam yiyələnmələri məqsədi daşıyan təlimlər Azərbaycan Müəllim İnkişafı Mərkəzinin təlimçi-müəllimi Qoşqar Məhərrəmov tərəfindən həyata keçirilib. Təlimlərdə təlimçi-müəllim müxtəlif mövzularda söhbət açıb, elektron lövhədə slaydlar üzərindən təqdimatlar əsasında geniş məlumatlar verib və müzakirələr aparıb.

Təlimdə iştirak edən 100-dən artıq məktəb direktoru və təlim-tərbiyə işləri üzrə direktor müavinləri sonuncu gün keçirilən imtahanlarda iştirak ediblər.

İmtahanlarda yüksək nəticələr əldə edən iştirakçılara sertifikatlar veriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***



Foto: Əsəd SƏFƏROV

*Azərbaycan xalq təqvimində özünə yer tutan və "quyruq doğdu" adlanan vaxt avqust ayının 5-6-na təsadüf edir və yayın yarı olduğu dövr hesab olunur. Həm elmi mənbələrdə, həm də xalq arasında "quyruq doğdu" tez-tez müzakirə mövzusuna çevrilir. Bəziləri deyir ki, quyruq doğmaz, donar. Maldarlıq təsərrüfatında ilin bu dövrünün "quyruq dondu" adlandırılmasının səbəbi isə bununla izah edilir: deyirlər ki, hava sərin olduğu üçün yaylaqda kəsilən heyvanın quyruğu əridildikdən sonra donur.*

*Xalq təqvimi*

# "Quyruq doğdu" dövrü

İstər elmi qaynaqlarda, istərsə də el arasında bu ifadə ilə bağlı bir-birini təkzib edən fikirlər söylənilir: "Azərbaycan dilinin izahlı lüğəti"ndə yazılıb: "Quyruq doğmaq" (əsli quyruq donmaq) yay fəslinin yarıdan keçdiyini bildirən ifadədir. Lüğətdə əsli "quyruq donmaq" ifadəsi yazılsa da, Firudun bəy Köçərli, Süleyman Rəhimov və Mir Cəlala istinadən çəkilən misalların hamısında "quyruq doğdu" yazılıbdır. Üçcildlik "Azərbaycan etnoqrafiyası" kitabında isə oxuyuruq: "Yayın ikinci dövrünün adına "quyruq doğdu" da deyirlər. Atababalarımız yay yarı olan gecə səhərə yaxın Şərq tərəfdən işığı arxaya tərəf uzanan quyruqlu ulduzların görünməsini müəyyən edir və təsərrüfat işlərini məhz bu dövrdə görürdülər".

Abbasqulu ağa Bakıxanov "Əsrarül mələküt" əsərində quyruqlu ulduzlar haqqında məlumat verərək qeyd edir ki, bu ulduzlar səmada hər zaman yox, müəyyən zaman çərçivəsində görünür. Onlar gecə görünərkən Günəş kimi işığı çox olduğu üçün gecə gündüzə çevrilir. A.Bakıxanov bu ulduzların görünmə təqvimini işləyib hazırlayıb ki, bunun da "quyruq doğdu"ya heç bir aidiyyəti yoxdur.

Tədqiqatçıların əksəriyyəti məşhur Azərbaycan təbiətşünası, maarifçi-alim Həsən bəy Zərdabinin 1905-ci ildə yazdığı "Quyruq doğdu, çillə çıxdı" məqaləsinə istinad edirlər. Həsən bəy Zərdabiyə görə, elə ulduz var ki, ilin bir vaxtında görünür, qeyri-vaxtlarda görünmür və bir də ulduzlar çox olduğundan onları bir-birindən ayırmaqdan ötrü dəstə-dəstə edib hər bir dəstəyə bu dəstə oxşadığı bir əşyanın, ya da heyvanın adını qoyurlar ki, onları tanımaq asan olsun. Bu ulduz dəstələrinə cürbəcür adlar qoyublar, o cümlədən onların bir dəstəsinə quyruq deyiblər ki, həqiqətən, heyvan quyruğuna şəbahəti (oxşarı) var. O quyruğa oxşayan ulduz dəstəsi bizim yerimizdə tülu edir (görsənir).

"Azərbaycan etnoqrafiyası" kitabında yazılıb: "Alimlər araşdırmalar nəticəsində göstəriblər ki, "quyruq doğdu" ifadəsi Buğa bürcündəki ulduz topası ilə bağlı yaranmışdır. H.Zərdabinin yazdığı "quyruğa oxşayan ulduz dəstəsi" Buğa bürcündəki Ülkər ulduzlarıdır. Azərbaycanda həmin ulduzlara "Xodək-garvan" və ya "Şamtərəzi" deyirlər".

Bunların Buğa bürcündəki Ülkər ulduzları olduğu həqiqətdir. Lakin bunun "quyruq doğdu"ya aidiyyəti yoxdur.

Etnoqraf Qəmərşah Cavadov "Əkinçilik mədəniyyətimizin sorağı ilə" kitabında yenə də Həsən bəy Zərdabinin məqaləsindən istifadə edir. O bildirir ki, əhali yayın yarıdan keçməsini Azərbaycanın müxtəlif zonalarında "Ülkər", "Şamtərəzi", "Xodək-garvan" və "Quyruq doğdu" adları ilə məlum olan ulduzların görünməsi ilə müəyyən edib.

Qeyd olunmalıdır ki, Ülkər ulduzları Naxçıvanda iyun ayının 2-də görünür. Etnoqraf Asəf Orucov da "Xalq təqvimi" kitabında Ordubaddan topladığı çöl materialları əsasında bunu təsdiq edir. Müəlliflərin qeyd etdikləri "Xodək-garvan", "Şamtərəzi", "Ülkər ulduzları" fərqli ulduzlardır və bunlardan "quyruq doğdu"ya yalnız "Şamtərəzi" aiddir. (Naxçıvanda buna "Mizan tərəzi", Ordubadda "Arşın tərəzi" deyirlər). Hər kəs avqustun 5-i və sonrakı günlər sübh vaxtı Şərq tərəfə baxarsa, bir-birindən, təxminən, 1,5-2 metr aralı, bir xətt üzrə düzülmüş 3 böyük ulduzu görər. Bu ulduzlar Böyük Köpək bürcünə aiddir. Həmin bürcün quyruğunun ucunda olan çox işıqlı "Sirius" ulduzuna görə "quyruq doğdu" (göründü) deyirlər. Bir xətt üzrə düzülən üç, çəpəki daha iki işıqlı ulduz vardır ki, bu beş ulduzun quruluşu tərəziyə oxşayır. Ona görə də buna "Mizan tərəzi" deyirlər.

"Quyruq dondu" ifadəsinə gəldikdə isə yaylaqda əridilmiş quyruq yağının donması vaxtı təyin etmək üçün əsas ola bilməz. Müxtəlif illərdə iqlimdə eyni vaxtda istiliyin fərqli olması, yaylaqların dəniz səviyyəsindən hündürlüyü dəqiq vaxt təyin etməyə imkan verməz. "Quyruq doğdu" isə konkret astronomik vaxtdır ki, hər il, eyni zamanda baş verir. Xalqımızın uzunmüddətli müşahidəsinə görə, "quyruq doğdu"dan sonra yaylaqda dəvələr üzü arana tərəf yatır. Bununla da artıq maldarlar havaların soyuduğunu, arana köçməyin vaxtının gəlib çatdığını bilirdilər.

Bəzi tədqiqatçılar qeyd edirlər ki, Naxçıvanın bəzi bölgələrində bu dövrə bəzən "quyruq doldu" da deyirlər. Ancaq "quyruq doldu", "quyruq dondu" ifadələri payızın yarı olduğu dövrə aiddir. Eybalı Mehrəliyev də "Xalq coğrafi terminləri lüğəti"ndə bu ifadələrin noyabr ayının əvvəlinə aid olduğunu qeyd edir.

Tədqiqatçıların "Quyruq doğdu"dan sonra "arxac", "qaşar", "axtarma" pendirləri daha çox ilin bu dövründən sonra tutulanmış" fikirləri də mübahisəlidir. Çünki Azərbaycanın heç bir bölgəsində avqust ayında qoyun sağılmır. Yay fəsli girdikdən sonra qoyunların sağımı dayandırılır. Çobanlar sürünü axtararaq gec doğan, hələlik südü qurumayan qoyunları tapıb sağırlar ki, bu süddən tutulan pendirin "axtarma" adı da buradan əmələ gəlib.

"Quyruq doğan" dövr isə xalq təqvimində "qora bişirən ay"ın içərisindədir (15 iyul-15 avqust). "Quyruq doğdu"dan sonra iqlimdə sərinləmə başlayır, axar sular soyuyur. Xalq inanclarına görə, "quyruq doğdu"dan sonra mineral sular müalicəvi əhəmiyyətini itirir. Bir də ağaclar yarpağını tökdükdən sonra müalicəvi əhəmiyyəti bərpa olunur.

Arıçılıq təsərrüfatında da ilin bu dövrünün özünəməxsus yeri vardır. Belə ki, peşəkar arıçıların dediyinə görə, "quyruq doğana" qədər balı kəsməzlər, çünki bu vaxta qədər bal sulu olur, tez süzülsə, turşuyar. Səhələrdən küləşi də bu dövrdən sonra yığardılar. Çünki axşamlar artıq şeh düşür, küləş quru olmadığı üçün asan toplanır. Bu dövrdə quzular qırxılıb sürüyə qatılardı. Həmçinin həmərsin, mərmərik (çöl gilənarı) meyvələrində qızarma başlayır ki, bu da xalq təqvimində bir dövr hesab edilir.

Bu dövrdə həm də küləş götürüldükdən sonra şum işinə başlanılırdı. Bir sözlə, "quyruq doğdu" ifadəsi qışa hazırlığın başladığı dövr hesab edilir.

**Zaleh NOVRUZOV**

## Şahmatçılarımız Türkiyədə



*Türkiyə Cümhuriyyətinin Konya şəhərində keçirilən şahmat üzrə Türkiyə Klublar Liqası başa çatıb.*

Yarışda birinci və ikinci liqalarda olmaqla, ümumilikdə, 54 komandanın heyətində 816 zəka sahibi qüvvəsini sınayıb. Həmin liqada Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının idmançısı, beynəlxalq usta Talıb Babayev də iştirak edib. Zəka sahibimiz Türkiyə ikinci liqasında birinci lövhədə mübarizə aparıb. O, keçirdiyi 9 oyundan 8 xal toplayaraq öz lövhəsində qalib adını qazanıb.

Eyni zamanda şahmatçılarımız iyulun 29-dan avqustun 4-dək Ankara şəhərində təşkil olunan Çubuk Bələdiyyəsi V beynəlxalq şahmat turnirində də iştirak edirlər. 8 və 10 yaşlı zəka sahiblərimiz A və B qruplarında mübarizə aparırlar.

**Ceyhun MƏMMƏDOV**

## Aztəminatlı ailəyə baş çəkilib

Naxçıvan Muxtar Respublikası Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Şərur Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun Diyadin kəndində yaşayan aztəminatlı və sağlamlıq imkanı məhdud övladı olan Hüseynovlar ailəsinə baş çəkilib.

Ailə ilə görüş zamanı bildirilib ki, dövlətimiz tərəfindən aztəminatlı ailələrə daim diqqət və qayğı göstərilir. Muxtar respublikada əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, aztəminatlı, xüsusi qayğıya ehtiyacı olan ailələrin sosial təminatlarının gücləndirilməsi və yoxsulluğun azaldılması istiqamətində ardıcıl olaraq tədbirlər həyata keçirilir. Sosial rifahını yüksəltmək üçün onların məşğulluq problemi həll olunur, aztəminatlı ailənin nümayəndələri ilə vaxtaşırı görüşlər təşkil edilir, onlara maddi və mənəvi cəhətdən dəstək göstərilir.

Sonra aztəminatlı ailənin yaşayış şəraiti ilə maraqlanılıb, ailə üzvlərinə tibbi xidmət göstərilib, onlara ərzaq payı verilib.

Ailə başçısı Tamella Hüseynova dövlətimiz tərəfindən onlara göstərilən bu diqqət və qayğıya görə öz minnətdarlığını bildirib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma hansı hallarda məsuliyyətə səbəb olur?*

***Cavab:*** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 188-ci maddəsinə əsasən qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsini özbaşına hasarlama, becərmə və ya dəyişdirmə, yaxud həmin torpaq sahəsini başqa üsullarla özbaşına tutma səkkiz min manatdan on min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Həmçinin qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsi üzərində özbaşına tikinti və ya quraşdırma işlərini aparma bir ildən üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Yuxarıda qeyd olunan əməllər kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə törədildikdə üç ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. O cümlədən yuxarıda göstərilən hərəkətlər təkrar və ya şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

İnzibati Xətalar Məcəlləsinin 247-ci maddəsinə əsasən torpaq sahəsindən məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsinə görə fiziki şəxslər üç yüz, vəzifəli şəxslər altı yüz manat, hüquqi şəxslər isə üç min manat məbləğində cərimə edilirlər. Bu xətalar kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə törədildikdə isə fiziki şəxslər beş yüz manat, vəzifəli şəxslər min, hüquqi şəxslər isə beş min manat məbləğində cərimə edilirlər.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

***İtmişdir***

Şahbuz rayonunun Qızıl Qışlaq kənd sakini Babayev Mahir Məzahim oğlunun adına olan JN-151[A] və JN-151[B] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair" şəhadətnamələr itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 522